# Bu gün ATU-da buraxılış günüdür!

http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 12 (1587) 25 iyun 2014 - cü il Qiymәti 40 qәpik

Prezident İlham Əliyev Azərbaycan səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.



## Bu sayımızda



Azərbaycan Tibb Universiteti üzrə 2013/2014-cü tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənilmişdir 3

ATU-nun Tədris Cərrahiyyə Klinikasında unikal əməliyyat - 6 yaşlı uşağın sınmış qoluna ayaqdan damar köçürülüb 3

Azərbaycanın səhiyyə işçiləri peşə bayramlarını qeyd etmişlər 2



Dövlət imtahanları başa çatdi, nəticələr qənaətbəxşdir 7

ATU-nu əla qiymətlərlə bitirən bütün məzunları səmimi qəlbdən təbrik edir, müstəqil həkimlik fəaliyyəti üçün vəsiqə alan gənclərimizə böyük uğurlar diləyirik! 4-5

Universitetimizin tələbəsi şahmat üzrə Azərbaycan Çempionatının qalibi oldu 7

## Azərbaycan Respublikasının səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:**

**Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:**

Abbasova Nəcibə Ələkbər qızı
Abbasova Səidə Həbib qızı
Abdullazadə Əbülfəz Abdulla oğlu
Əliyeva Bəhriyə Cabbar qızı
Qafarov Lütfi Cəlal oğlu
Qəmbərova Məhəbbət İslam qızı
Mahmudov Elşad Müzəffər oğlu
Məmmədov Cavid Mahal oğlu
Zülfüqarov Vaqif Paşa oğlu

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyun 2014-cü il

## Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

**Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:**

**"Əməkdar Həkim"**
Abbasova Pəri Mahmud qızı
Eyvazov Taryel Əli oğlu
Həsənov Bəxtiyar Əbdül Hüseyn oğlu
Həsənova Şirinnaz İsa qızı
Hüseynov Rüstəm Hüseyn oğlu
Mahmudov Rəşad Məmmədqulu oğlu
Məlikova Şərəbanı Höccət qızı
Rufullayeva Sadiqə Qiyas qızı
Rzayev Arif İsa oğlu
Rzayeva Elmira Şahsuvar qızı
Səfərova Pərvanə Əli qızı
Şıxəliyev Yavər Şıxəli oğlu
Xankişiyev Ramiz Səfər oğlu

**"Əməkdar Müəllim"**
Cümşüdov Cümşüd Həsən oğlu
Gəraybəyli Gəray Çingiz oğlu
Məmmədəliyeva Dilarə Əli qızı

**"Əməkdar Tibb İşçisi"**
Çobanova Ziyafət Məclum qızı
Həsənova Nişanə Qəşəm qızı
Məmmədova Leyla Mircəfər qızı
Məmmədova Validə Abbas qızı
Mövsumova Gülbacı Əli qızı
Muxtarova Roza İmran qızı
Seyidova Esmiralda Rafiq qızı
Urazina Svetlana Əzizovna

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyun 2014-cü il

# Səhiyyə işçiləri ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər





**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.**

Bununla əlaqədar səhiyyə naziri Oqtay Şirəliyev, Milli Onkologiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev, Azərbaycan Tibb Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov və tibb ictimaiyyətinin nümayəndələri iyunun 17-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də əklil qoyulmuş, gül dəstələri düzülmüşdür.

Tibb işçiləri görkəmli ictimai xadim, böyük səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin də məzarları üzərinə tər çiçəklər düzmüşlər.

Sonra Şəhidlər xiyabanına gələn səhiyyə işçiləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

# Azərbaycanın səhiyyə işçiləri peşə bayramlarını qeyd etmişlər

**İyunun 17-də Azərbaycanın səhiyyə işçilərinin peşə bayramı münasibəti ilə səhiyyə naziri Oqtay Şirəliyevin rəhbərliyi ilə geniş kollegiya iclası keçirilmişdir.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, tədbiri giriş sözü ilə acan nazir O.Şirəliyev tibb işçilərini bayram münasibətilə təbrik etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Tibb işçilərinin bu bayramı ulu öndər Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı əsasında qeyd etdikləri diqqətə çatdırılmış. Eyni zamanda, son illərdə səhiyyənin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi, köklü kadr islahatları istiqamətində həyata keçirilmiş tədbirlərdən danışılmışdır. Qeyd edilmişdir ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində 500-dən artıq yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış tibb müəssisəsi ən müasir avadanlıqlarla təmin olunmuşdur.

Kollegiyada, həmçinin səhiyyənin kardiocərrahiyyə, sümük iliyinin transplantasiyası, irsi qan xəstəlikləri kimi prioritet sahələrində qazanılmış uğurlardan da danışılmışdır.

Daha sonra kollegiya katibi bir qrup səhiyyə işçisinin "Tərəqqi" medalı və fəxri adlarla təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamlarını oxumuşdur.

Tədbirin sonunda bir sıra tibb işçisinə mükafat və hədiyyələr təqdim edilmişdir.

# Bakıda "Azərbaycan və Mərkəzi Asiya" səhiyyə sammiti keçirilib



**İyunun 23-də Bakıda "Azərbaycan və Mərkəzi Asiya" səhiyyə sammiti öz işinə başlamışdır.**

AzərTAc xəbər verir ki, tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Gürcüstandan 40-a yaxın mütəxəssis iştirak edir.

Sammitin açılışında çıxış edən "Oliver Kinross" təşkilatının meneceri Maximilian Lejman təmsil etdiyi təşkilatın fəaliyyəti barədə məlumat vermişdir.

Sammitin həmsədri Nabil Seyidov Bakıda keçirilən bu tədbirin əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, sammitin məqsədi müxtəlif ölkələrin səhiyyə sahəsində peşəkarlarını bir araya gətirmək və ən yaxşı təcrübələri bölüşməkdir.

Bildirilmişdir ki, tədbir iştirakçıları təmsil etdikləri ölkələrin səhiyyə nazirlikləri, klinikaları, tibb işçiləri arasında mövcud əlaqələrin genişləndirilməsi, yeni əlaqələrin yaradılması məsələlərini müzakirə edəcəklər. Eyni zamanda, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə yeni texnologiyaların tətbiqi imkanlarının araşdırılması mövzusunda fikir mübadiləsi aparmışlar.

Sonra Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktor müavini İradə Axundova Azərbaycanda vərəm xəstəliyinin müalicəsi və profilaktikası istiqamətində həyata keçirilən layihələrdən danışmışdır. Bildirilmişdir ki, Azərbaycanda Vərəmlə mübarizə üzrə Dövlət Proqramı və Milli Strategiya çərçivəsində xəstəliyin yayılmasının qarşısının alınması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Respublikanın şəhər və rayonlarında vərəm xəstəxanalarının tikintisi və təmiri aparılmışdır. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda yaradılmış Milli Referens Laboratoriyası ilə yanaşı mikrobioloji müayinələrin aparılması Gəncə və İmişlidə də təşkil edilmişdir. Bu laboratoriyalar müasir diaqnostik cihaz və avadanlıqla təchiz edilmişdir. Vərəmin diaqnostikasının yaxşılaşdırılması, vərəmin multirezistent formalı xəstələrin aktiv müalicəyə cəlb olunması, geniş miqyaslı profilaktik tədbirlərin görülməsi, vərəmli xəstələrin birinci və ikinci sıra dərman preparatları ilə tam təmin olunması nəticəsində epidemioloji vəziyyətin stabilləşməsinə nail olunmuşdur. Bununla yanaşı, bu xəstəlikdən ölüm göstəricisi son 10 il ərzində 2,6 dəfə azalmışdır.

Qırğız Respublikası Səhiyyə Nazirliyinin nümayəndəsi Mederbek İsmailov "Qırğız Respublikasının səhiyyə sistemi" mövzusunda məruzə ilə çıxış etmişdir.

Toplantıda digər ölkələrin tibb mütəxəssislərinin də məruzələri dinlənilmişdir.

Sammit iyunun 24-də başa çatmışdır.

## BÖYÜK ELMİ ŞURADA

# Azərbaycan Tibb Universiteti üzrə 2013/2014-cü tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənilmişdir



**İyunun 23-də Böyük Elmi Şura 2013/2014-cü tədris ilinin son iclasını keçirdi. İclası açan universitetin tədris işləri üzrə prorektoru, ə.e.x., professor Sabir Əliyev ilk öncə bu günlərdə səhiyyə işçilərinin peşə bayramı ilə əlaqədar ölkə başçısı cənab İlham Əliyevin Sərancam imzaladığını diqqətə çatdırdı və universitetimizin əməkdaşları professor Gəray Gərayzadə və dosent Cümşüd Cümşüdovu «Əməkdar müəllim» fəxri adı almaları münasibətilə təbrik etdi. Daha sonra prorektor uşaq yoluxucu xəstəliklər kafedrasının müdiri, tibb elmləri doktoru Nərgiz Hüseynovanı 70 illik yubileyi münasibətilə təbrik edərək, alimin universitetimizin həyatındakı xidmətlərini xüsusi vurğuladı, gələcək işlərində ona uğurlar dilədi.**

Sonra Azərbaycan Tibb Universiteti üzrə 2013/2014-cü tədris ilində Dövlət Attestasiya Komissiyası sədrlərinin hesabatı dinlənilmiş və gənc mütəxəssislərin hazırlanması keyfiyyətinin yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri” müzakirə edilmişdir.

Attestasiya Komissiyasının sədrləri I müalicə-profilaktika fakültəsi üzrə Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, ə.e.x., professor Vaqif Verdiyev, II müalicə-profilaktika fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun psixiatriya və narkologiya kafedrasının müdiri, tibb elmləri doktoru Teymur Qafarov, pediatriya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təhkimləşdirmə İnstitutunun dosenti Rəqsanə Məmmədova, tibbi-profilaktika ixtisası üzrə Respublika Taun Əleyhinə Stansiyanın direktor müavini, t.e.f.d. Şair Qurbanov, tibbi-biologiya ixtisası üzrə Milli Onkologiya Mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini, professor Murad Məmmədov, stomatologiya fakültəsi üzrə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun stomatologiya kafedrasının dosenti Həsən Əsədov, əczaçılıq fakültəsi üzrə Əczazılıq və Tibb Sənayesi Birliyinin baş direktoru Rüstəm Rüstəmbəyov, hərbi tibb fakültəsi və hərbi tibb məktəbi üzrə Attestasiya Komissiyasının sədr müavini Hərbi Tibb İdarəsinin rəis müavini, t\x polkovniki Həşim Cəfərov dövlət imtahanlarının yekunları və nəticələri haqqında ətraflı məlumat verdilər. İmtahanlarda tələbələrin biliklərinin obyektiv qiymətləndirildiyini, builki tələbələrin bilik səviyyəsinin yüksək olduğunu söylədilər.





Komissiya sədrləri dövlət buraxılış imhanlarının yüksək səviyyədə keçirilməsi üçün hər cür imkanın yaradıldığını, tələbələrin obyektivlik şəraitində yüksək bilik nümayiş etdirdiklərini, əlaçılar sırasında keçən illə müqayisədə bu il qızların çoxluq təşkil etdiyini xüsusi qeyd etdilər.

Böyük Elmi Şura 2014/2015-ci tədris ili üçün universitet üzrə tədris planını və 2014/2015-ci tədris ili üçün ATU-nun iş planını da təsdiqlədi.

Hesabatlara yekun vuran prorektor S.Əliyev komissiya sədrlərinə öz təşəkkürünü bildirdi və onların hər birinin çalışdıqları sahədə mahir mütəxəssislər olduğunu vurğulayaraq dedi kı, həqiqətəndə dövlətburaxılış imtahanları çox yüksək səviyyədə təşkil olunub, universitetimizin rektoru, hörmətli akademik Ə.Əmiraslanov demək olar ki, imtahanların hamısında iştirak edibdir. İmtahanların nəticələrinə gəldikdə isə elə bir narazılığın olmadığını qeyd etdi, bu və digər məsələlərin rektoryanı və metodik şuralarda müzakirə olunacağını bildirdi.

Sonra universitetin prorektoru, professor Sabir Əliyevin əczaçılığın təşkili və əczaçılıq texnologiyası kafedrası adının «əczaçılığın təşkili və idarə olunması» kimi adlandırılması barədə təklifi şura üzvləri tərəfindən müzakirə olunaraq qəbul edildi.

Sonda müxtılif məsələlərdən söhbət açan prorektor professor-müəllim heyətinə mənalı istirahət arzuladı şura üzvlərini və Dövlət Attestasiya Komissiyasının sədrlərini iyunun 25-də keçiriləcək ATU-nun növbəti buraxılış gecəsinə dəvət etdi.

**MƏNSUR**

# ATU-nun Tədris Cərrahiyyə Klinikasında unikal əməliyyat - 6 yaşlı uşağın sınmış qoluna ayaqdan damar köçürülüb

**Azərbaycan Tibb Universitetinin həkimləri unikal bir əməliyyat icra ediblər. ATU-nun Tədris Cərrahiyyə Klinikasında texniki baxımdan çox mürəkkəb olan mikrocərrahiyyə əməliyyatı sayəsində 6 yaşlı oğlanın qolu kəsilməkdən xilas edilib.**

İyunun 15-də Quba rayonundan olan 6 yaşlı Tanrıverdi Allahverdiyev yelləncəkdən yıxılıb. O, yıxılarkən dirsəyinin üstünə düşüb. Dirsək sümüyü tam sınıb və az qala dərini deşərək bayıra çıxıbmış. Uşaq ağır vəziyyətdə Tədris Cərrahiyyə Klinikasına gətirilib və əməliyyata alınıb.

Əməliyyat mikrocərrahiyyə sahəsində iki tanınmış mütəxəssis - ürək-damar uzmanı Mirəli Məcidov və tibb elmləri namizədi Cəfər Nəsirli tərəfindən gerçəkləşdirilib. Lakin bundan sonra növbəti, daha ağır əməliyyata da zərurət yaranıb. Mirəli Məcidov deyir ki, uşaq ATU-nun Tədris Cərrahiyyə Klinikasına “Sol bazu kondilusunun qapalı sınığı” diaqnozu ilə daxil olub: “Əməliyyat zamanı sınıq sümük bərpa olundu. Lakin 5-6 saat sonra bəlli oldu ki, uşağın sol əlində nəbz itib, işemiya əlamətləri başlayıb, sağ qolla müqayisədə sol qolda hərəkət çətinləşib”.

Doppler müayinəsi zamanı bəlli olub ki, sol qolda qan yalnız dirsəyin ortasına kimi gedir, qan aşağı hissəyə işləmir. M.Məcidov söyləyir ki, damar trombozu uşağın qolunun kəsilməsi ilə nəticələnə bilərdi: “Böyüklərdən fərqli olaraq, uşaqların damarları incə olur, 2 mm qalınlığında damarlardır. Adətən belə hallarda böyük xəstələrdə protezlərdən istifadə edirdik. Uşaqlarda belə imkan olmur. Ona görə təcili olaraq uşağı yenidən əməliyyata götürdük”.

Həkimlər gecə saat 12-də yenidən əməliyyata giriblər. Dirsəkdəki damarın 3-4 sm-lik hissəsi tamamilə əzildiyindən çıxardılıb. Sağ ayaqdan bir hissə damar götürülərək sol qola qoyulub.

Əgər dərhal müdaxilə olmasaydı, uşağın qolu dirsəkdən aşağı kəsilməliydi. 6 saat davam edən əməliyyat uğurlu keçib. Artıq T.Allahverdiyev reanimasiyadan palataya köçürülüb. Vəziyyəti qənaətbəxşdir, qolunda hərəkət başlayıb, ağrıları da keçmək üzrədir.



**Günel ASLANOVA,**
*Mətbuat xidmətinin katibi*

# Azərbaycan Tibb Universitetini əla

## Əhmədova Ülkər Eldar qızı




2008-ci ildə Bakı şəhərindəki 207 saylı orta məktəbi əla qiymətlərlə bitirərək 610 balla Azərbaycan Tibb Universitetinin (ATU) II Müalicə-profilaktika fakültəsinə daxil olub. Universitetlərdə təhsil aldığı müddətdə müxtəlif elmi konfranslarda iştirak edib. 2009-cu ildə Tələbə Elmi Cəmiyyətinin (TEC) 77-ci yekun elmi konfransında qalib olduğu üçün diploma layiq görülüb. II Mamalıq və ginekologiya kafedrasında "Preeklampsiya və eklampsiya perinatal nəticələr" mövzusunda elmi iş götürüb və 2012-ci ildə TEC-in fakültə konfransında qalib olub. 2012-2013-cü illərdə Almaniya-Azərbaycan Tibbi Əməkdaşlıq Cəmiyyətinin (GAMCA) təşkil etdiyi radiologiya, laparoskopiya üzrə keçirilən treyninq kurslarında iştirak edərək müvafiq sertifikatlara layiq görülüb. ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkil etdiyi "5 günlük rezident ol" layihəsində iştirak edib və ATU TTK-nın Daxili xəstəliklər kafedrasında tələbə-rezident olub. 2013-cü ilin avqust ayında GAMCA-nın Summer Medical School layihəsi çərçivəsində Almaniyanın Mannhaym Universitet Klinikasının damar cərrahiyyəsi şöbəsində bir aylıq hospitasyon keçib. Bundan başqa bir sıra nüfuzlu kurslarda iştirak edərək sertifikatlar almışdır.

Arzusu Almaniyanın yüksək ixtisaslı nüfuzlu klinikalarının birində rezidentura təhsilini davam etdirməkdir. İnterventional kardiologiya üzrə ixtisaslaşıb və ölkəmizdə yeni inkişaf edən bu sahədə yaxşı mütəxəssis kimi formalaşmaq və Hippokrat andını rəhbər tutaraq doğma Vətənimizdə insanların sağlamlığı keşiyində durmaq niyyətindədir.

## Ahu Müjgan Onk



1990-cı ildə ziyalı ailəsində anadan olub. 1997-2008-ci illərdə T.İsmayılov adına 6 saylı məktəb-liseyi əla qiymətlərlə başa vurub. 2008-ci ildə 580 balla Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsinə daxil olub. 2008-ci ildə "Respublika Olimpiadası"nda biologiya fənni üzrə I yerə çıxıb.

Uşaqları sevdiyindən uşaq ixtisasını seçən Müjgan ATU-da oxuduğu illərdə dərsdən kənar bir çox ictimai fəaliyyətlərlə məşğul olub. Məqsədi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirtdiyi rezidentura pilləsində keçirilən imtahanları uğurla keçməkdir.

## Əhmədli Nərmin Cəfər qızı



Bakı şəhərində anadan olub. Nəsimi rayonunda yerləşən 42 saylı orta məktəbi 2008-ci ildə bitirərək 601 balla ATU-nun I müalicə-profilaktika fakültəsinə daxil olub. Orta məktəbdə rayon və şəhər üzrə keçirilən olimpiadalarda kimya fənni üzrə iştirak edib və II yerə çıxıb. Daxili xəstəliklərin propedevtikası kafedrasından "Arterial Hipertenziya" mövzusunda elmi tədqiqat işi aparıb və diploma layiq görülüb. Universitetdə keçirilən Alman Azərbaycan Əməkdaşlıq Cəmiyyətində (GAMCA) də ümumi cərrahiyyə istiqamətində iştirak edib və diploma təltif olunub.
Arzusu ATU-nu bitirdikdən sonra seçdiyi ginekologiya ixtisası üzrə yüksək səviyyəli mütəxəssis kimi yetişərək anaların və dünyaya göz açan körpələrimizin sağlamlığı keşiyində dayanmaqdır.

## Qaçaylı Leyla Nofəl qızı



1991-ci il dekabrın 26-da Bakı şəhərində anadan olub. 1998-ci ildə Bakı şəhərindəki 176 saylı orta məktəbin I sinfinə gedib. 2000-ci ildə isə II sinfi bitirdikdən sonra imtahan verərək birbaşa IV sinfə keçib. Məktəbdə oxuyarkən dəfələrlə fənn olimpiadalarında iştirak edib, riyaziyyat fənni üzrə I yeri qazanıbdır. 2008-ci ildə Heydər Əliyevin 85 illiyinə həsr olunmuş məktəblərarası olimpiadada I yeri tutub. 2008-ci ildə 685 balla ATU-nun I MPF-nə daxil olub və Prezident təqaüdünə layiq görülüb.

Arzusu təhsilini davam etdirmək, savadlı həkim olmaqdır.

## İbrahimli Ülkər İsaq qızı



Cəlilabad rayonunda anadan olub. Nizami rayonundakı 214 saylı orta məktəbi 2008-ci ildə bitirərək 630 balla ATU-nun I MPF-nə daxil olub. Orta məktəbdə kimya, xarici dil və tarix fənni üzrə olimpiadaların rayon və şəhər turlarında iştirak edərək I və II yerə layiq görülüb. 2012-ci ildə Türkiyə Respublikasında kardiologiya üzrə konfransda iştirak edib. 2012-ci ilin avqust ayında İstanbul Universitetinin Tibb fakültəsində iş təcrübəsi keçib.

Universitetdə oxuduğu illərdə TEC-in üzvü olub. ATU-nun tələbə birliyinin hazırladığı "5 gün rezident ol" layihəsində onkologiya üzrə rezident işləyib və ATU-nun rektoru, akademik Ə.Əmiraslanov tərəfindən sertifikata layiq görülüb. Məqsədi ATU-nu bitirdikdən sonra təhsilini Almaniyada davam etdirmək, bacarıqlı mütəxəssis kimi yetişməkdir.

## Əfəndiyeva Günel Mustafa qızı



Bakı şəhərində anadan olub. 2008-ci ildə Nizami rayonundakı N.Həmzəyev adına 238 saylı orta məktəbi bitirərək 610 balla ATU-nun I Müalicə-profilaktika fakültəsinə daxil olub. Orta məktəbdə oxuduğu zaman bir sıra olimpiadalarda iştirak edərək müvəffəqiyyət qazanıb. 2013-cü ildə Fransada Hematologiya üzrə keçirilən konfransda iştirak edib və sertifikatla təltif olunub. Universitetdə oxuduğu illərdə ATU-nun Tələbə Elmi Cəmiyyətinin üzvü olub. Patoloji fiziologiya kafedrasından "Şəkərli diabet və onun qara ciyərə təsiri", Daxili xəstəliklərin propedevtikası kafedrasından "Miokard infarktı" mövzusunda elmi işlər işləyib və diplomlarla təltif olunub. ATU tələbə birliyinin hazırladığı "5 gün rezident ol" layihəsində onkologiya üzrə rezident işləyib və ATU-nun rektoru, akademik Ə.Əmiraslanov tərəfindən sertifikatla təltif olunub.

Arzusu ATU-nu bitirdikdən sonra seçdiyi ixtisas üzrə xalqına və vətəninə layiqli oftalmoloq-həkim kimi xidmət etməkdir.

## Fərzəlibəyova Mədinə Səlim qızı



1988-ci ildə Bakı şəhərində anadan olub. 1995-2006-cı illərdə Səbail rayonunun 160 nömrəli orta məktəbini bitirib. 2006-cı ildə ATU-ya qəbul olub və universiteti fərqlənmə diplomu ilə başa vurur.

Rus, ingilis, italyan dillərini bilir. Bir sıra beynəlxalq və ölkə daxilində keçirilmiş tədbirlərdə, o cümlədən elmi simpozium və tələbə düşərgələrində Azərbaycanı təmsil edib.

2009-cu ildə AR üzrə Tədbirlər proqramı çərçivəsində keçirilmiş "Reproduktiv sağlamlıq, o cümlədən HİV / AİDS təlimatçılarının təlimi" kursunda iştirak edərək müvafiq sertifikata yiyələnib. Bir sıra elmi nəşrlərdə və mətbuat orqanlarında məqalələri dərc olunub.

## Nağızadə Bilqeyis Elmir qızı



2008-ci ildə Gəncə şəhərindəki M.Mehdizadə adına 4 saylı orta məktəbi bitirərək 590 balla ATU-nun II Müalicə işi fakültəsinə daxil olub. Məktəbdə oxuduğu illərdə olimpiadalarda iştirak edib. Ingilis dili üzrə keçirilən FLEX müsabiqəsində və III kursda TEC-in konfransında iştirak edib.

Bilqeyis rus, ingilis, türk dillərində sərbəst danışır. Arzusu rezidenturaya qəbul olduqdan sonra insanların sağlamlığı keşiyində dayanmaqdır.

# qiymətlərlə başa vuran məzunlarımız

## Rüstəmov Rizvan Vilyam oğlu



1991-ci ildə Bakıda mühəndis ailəsində anadan olub. 1997-ci ildə Sabunçu rayonundakı 192 saylı orta məktəbin I sinfinə gedib. Orta məktəbdə oxuduğu illərdə bir sıra olimpiadalarda iştirak edib. 2006-ci ildə kimya olimpiadasında şəhər turunun qalibi olub. 2008-ci ildə 81 sayli orta məktəbi əla qiymətlərlə bitirib. Elə həmin ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə daxil olub. Aşağı kurslardan etibarən universitetin elmi-ictimai fəaliyyətində aktivlik göstərib. Dəfələrlə universitetdaxili və universitetxarici (İMESCON 2012, Samsun/Türkiyə) konfranslarda iştirak edib, sertifikatlara layiq görülüb. 2013-cü ildə Tələbə Gənclər Təşkilatının təşkil etdiyi Məntiq olimpiadasında fəxri fərmana layiq görülüb. Eləcə də universitetdaxili müxtəlif tədbirlərin təşkilində fəaliyyət göstərib. Habelə 2-3 May 2014-cü ildə keçirilən tələbə və gənc həkimlər üçün I Beynəlxalq Tibb Konqresinin Təşkilat Komitəsində Elmi İşlər üzrə kordinator vəzifəsində çalışıb. 2014-cu ildə Azərbaycan Tibb Universitetini fərqlənmə diploma ilə bitirir.

Gələcək planı təhsilini xaricdə davam etdirmək, elmi-praktik vərdişlərə dərindən yiyələndikdən sonra Azərbaycan Səhiyyəsinin inkişafında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmək və xalqa xidmət etməkdir.

## Şirinova Səmra Mabud qızı



Ağdaş rayonunda doğulub. 2008-ci ildə Yasamal rayonu 199 saylı orta məktəbi bitirərək yüksək balla ATU-nun II MPF fakültəsinə daxil olub. 681 bal topladığı üçün Prezident təqaüdü alıb. Məktəbdə oxuduğu illərdə biologiya, kimya fənləri üzrə olimpadalarda iştirak edib və I yer tutub. Universitetdə oxuyarkən Daxili xəstəliklər kafedrasında "Şəkərli diabet" üzrə elmi iş götürərək mövzu ilə əlaqəli çıxış edib. Arzusu gələcəkdə Almaniyada yüksək ixtisaslı xəstəxanalardan birində rezidentura təhsili keçməkdir.

## Abdulələlimova Xatirə Rəfail qızı



1991-ci ildə Bakıda anadan olub. 1997-ci ildə Bakı şəhəri, Biləcəri qəsəbəsi 2 saylı orta məktəbin I sinfinə gedib. 2004-cü ildə oradan Respublika İncəsənət Gimnaziyasına keçib. 2008-ci ildə gimnaziyanın Fortepiano şöbəsini və tam orta məktəbi əla qiymətlərlə bitirib. Yüksək balla ATU-nun I Müalicə işi fakültəsinə daxil olub. Universitetin III kursunda Tələbə Elmi Cəmiyyətinin fəal iştirakçısı kimi "Patofiziologiya" kafedrasında işlədiyi elmi işinə görə universitet üzrə II yerə layiq görülüb. Universitetin "Daxili xəstəliklərin propedevtikası" kafedrasında işlədiyi elmi işinə görə II yeri, eləcə də VI kursda universitetin "Ginekologiya" kafedrasında "Biyan kökünün ginekoloji xəstəliklərin müalicəsində rolu" mövzusunda çıxış etdiyi elmi işinə görə I yeri qazanıb. Rus və ingilis dillərini bilir. Bütün fənlərdən əla qiymət alaraq universiteti əlaçı kimi bitirir.

Arzusu həkim-kardioloq olmaqdır.

## Quluzadə Lalə Çingiz qızı



1997-ci ildə Suraxanı rayonunda yerləşən xarici dillər təmayüllü gimnaziyasının I sinfinə daxil olub. Gimnaziyada oxuduğu müddətdə nümunəvi davranış və dərs müvəffəqiyyətinə görə fəxri fərmanlarla təltif olunub. 9-cu sinfi qırmızı şəhadətnamə ilə bitirərək Qubadlı 1 saylı tam orta məktəbinə daxil olub. 2008-ci ildə orta məktəbi bitirərək 647 balla Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsinə daxil olub.

2010-cu ilin aprelində Tələbə elmi Cəmiyyətinin keçirdiyi konfransda fəal iştirakına görə diplomla təltif olunub.

2011-ci il iyulun 11-dən avqustun 8-ə dək Türkiyənin Qazi Universitetində istehsalat təcrübəsi keçərək bir sıra konfransların sertifikatları ilə təltif olunub.

## Hüseynova Mehriban Rafael qızı



2008-ci ildə Gəncə şəhərində yerləşən 4 saylı orta məktəbi əla qiymətlərlə başa vuraraq 630 balla ATU-nun II Müalicə işi fakültəsinə qəbul olub. Orta məktəbdə oxuduğu illərdə kimya və biologiya üzrə keçirilən rayon olimpiadalarının qalibi olub. III kursdan TEC-nin fəal üzvü kimi fəaliyyət göstərib. O, 2013-cü ildə TEC-in yekun elmi konfransında diploma layiq görülüb. Mehriban ingilis, türk və rus dillərində sərbəst danışır. Arzusu rezidenturaya qəbul olmaq, gələcəkdə yüksək səviyyəli mütəxəssis kimi yetişməkdir.

## Bayramova Nigar Qalib qızı



1991-ci ildə Gəncə şəhərində anadan olub. 2008-ci ildə orta məktəbi əla qiymətlərlə bitirb. Elə həmin ildə ATU-nun MPF-nə daxil olub, fərqlənmə diplomu ilə universiteti bitirib. Orta məktəbdə oxuduğu dövrdə bir neçə dəfə olimpiadalarda iştirak edib və diploma layiq görülüb.

Həyatda qazandığı nailiyyətlərə görə Allaha və anasına borclu olduğunu bildirir. Kariyerasını davam etdirmək arzusundadır.

## Əhədova Tahirə Ceyhun qızı



2008-ci ildə 289 saylı "Zəngi" liseyini bitirdikdən sonra yüksək balla Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olub. Orta məktəb illərində keçirilən bir neçə olimpida və müsabiqələrin qalibi olub. Oxuduğu müddətdə Prezident təqaüdü alıb. 2014-cü il martın 30-da keçirilən rezidenturaya qəbul imtahanının I mərhələsində 75 bal toplayıb.

## Əhmədli Nərmin İslam qızı



1991-ci ildə Şəki şəhərində anadan olub. 1997-ci ildə Şəki şəhərindəki 5 saylı orta məktəbə gedib. 2008-ci ildə Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseyi bitirib. Həmin ildə 695 balla ATU-nun I Müalicə-profilaktika fakültəsinə daxil olub. 2014-cü ildə universiteti bitirərək fərqlənmə diplomu alıb.

## İsmayılov Surəddin Sədrəddin oğlu



1997-ci ildə Bakı şəhəri Xətai rayonundakı M.Hacıyev adına 116 saylı orta məktəbin 1-ci sinfinə gedib. Orta təhsil müddətində dəfələrlə məktəb olimpiadalarında iştirak edib, rayon, şəhər turnirlərinin qalibi olub. 2003-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təşkil etdiyi "Humanitar Prinsiplər və Beynəlxalq Humanitar Hüququn əsasları" üzrə bilik müsabiqəsinin birinci turunun qalibi olub və qurumun Azərbaycan bölməsinin rəhbəri Floran Korna tərəfindən sertifikatla mükafatlandırılıb. 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirərək yüksək balla Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə daxil olub. Aşağı kurslardan Universitetin elmi-ictimai həyatında aktiv iştirak edib, müxtəlif tədbirlərin təşkilində rol oynayıb. III kursdan pediatriya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin üzvü, daha sonra bölmə sədri olub. V kursdan universiteti bitirənə kimi həmin cəmiyyətin sədri vəzifəsində çalışıb. Bu müddətdə müxtəlif ölkədaxili və ölkəxarici elmi konfranslarda istər iştirakçı, istərsə də təşkilatçı kimi iştirak edib, diplom və sertifikatlara layiq görülüb. 2014-cü ilin may ayında tələbələr və gənc həkimlər üçün keçirilən I Beynəlxalq Tibb Konqresinin koordinatoru olub.

Başlıca məqsədi təhsilini xaricdə davam etdirmək, Vətənə döndükdən sonra qazandığı bilik və bacarıqlardan xalqın sağlamlığı naminə istifadə etməkdir.

## Abasov Camal Naib oğlu



1991-ci il mayın 18-də Cəlilabad rayonunda anadan olub. 1997-ci ildə Bakı şəhərindəki 164 saylı orta məktəbin I sinfinə gedib. 2008-ci ildə həmin məktəbi bitirərək ATU-nun Hərbi Tibb Fakültəsinə daxil olub. Universitet TEC-nin konfranslarında fəal iştirakına görə diplom və sertifikatlarla təltif olunub. Hazırda universiteti əla qiymətlərlə və tibb xidməti leytenantı hərbi rütbəsi ilə bitirir.

# Fakültələrimiz bu gün

## I müalicə-profilaktika fakültəsi



Fakültəyə hal-hazırda professor Abuzər Qaziyev rəhbərlik edir. I MPF-də 299 nəfər professor-müəllim heyəti çalışır ki, onlardan 1 nəfəri AMEA-nın həqiqi, 2 nəfər müxbir üzvü, 30 nəfər professor, 86 nəfər dosentdir.

I MPF-nin onkologiya kafedrası 2007-ci ilin iyun ayında fəaliyyətə başlayan ATU-nun onkoloji klinikası bazasında, nəzəri kafedralar (insan anatomiyası, tibbi biologiya və genetika, fəlsəfə) onlara məxsus tədris binalarında fəaliyyət göstərirlər. Kliniki kafedralar Səhiyyə Nazirliyinin müxtəlif bazalarında fəaliyyət göstərirdi. Artıq terapiya yönümlü kafedralar Tədris Terapevtik Klinikada, cərrahiyyə yönümlü kafedralar isə Tədris Cərrahiyyə klinikasında yerləşdirilmişdir. Fakültədə 15 kafedra və 1 kurs fəaliyyət göstərir.

Hazırda Tibb Universitetində hüquq və vəzifələri eyni olan 2 müalicə-profilaktika fakültəsi (birinci və ikinci) vardır. Bu fakültələr 1974-cü ildə vahid müalicə-profilaktika fakültəsinin 2 yerə bölünməsi yolu ilə yaradılmışdır. Müalicə-profilaktika fakültəsi Azərbaycan Tibb Universitetinin bütün 84 illik tarixi ərzində, həmçinin də 1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetinin «tibb fakültəsi» nəzdində elə bu ad altında fəaliyyət göstərmişdir. On ildən

## Müalicə-profilaktika fakültələri

artıq bir müddətdə (1919-1930) BDU-nun tərkibində fəaliyyət göstərən müalicə - profilaktika fakültəsi maddi - texniki bazasını, kadr potensialını və tələbə qəbulunu genişləndirərək böyük bir fakültəyə çevrilmişdi. Müalicə-profilaktika fakültəsinin bazası əsasında 2 fakültənin yaradılması zərurəti bununla əlaqədar olmuşdur ki, 1956-cı ildən etibarən bu fakültədə tələbələrin sayı ilbəil artırılmış və 1973-cü ildə 4500 nəfərə çatdırılmışdır.

İnstitutun o vaxtkı rektoru professor Z.Quliyevanın 5 may 1974-cü il tarixli 89 N-li əmri ilə II müalicə-profilaktika fakültəsi təşkil edilmişdir. Həmin əmrə əsasən I müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsinə professor S.Kərimov, II müalicə-profilaktika fakültəsinin dekanı vəzifəsinə isə professor R.Yusibov təyin edilmişdi.

## II müalicə-profilaktika fakültəsi



2005-ci ildə fakültənin dekanı vəzifəsinə dosent Tariyel Mustafa oğlu İsmayılov seçilmişdir və o, indiyə qədər bu vəzifədə çalışır. Hazırda fakültədə 1809 tələbə təhsil alır. Onlardan 1541 nəfəri Azərbaycan, 184 nəfəri rus, 84 nəfəri isə təhsillərini ingilis dili bölməsində alır. Diplomaqədərki dövrdə təhsildə fərqlənən tələbələr bir sıra xarici ölkələrin (Türkiyə, Almaniya, ABŞ, Bolqarıstan, Rumıniya və s.) qabaqcıl Universitetlərində təcrübə keçmək imkanına malikdirlər. Hazırda məzunların diplomdansonrakı mütəxəssis hazırlığı 2009-cu ildə qəbul edilmiş «Təhsil qanunu»na uyğun olaraq aparılır. Fakültənin nəzdində 15 kafedra və 3 (2 sərbəst və 1 müştərək) kurs fəaliyyət göstərir.

## PEDİATRİYA FAKÜLTƏSİ

Pediatriya fakültəsinin yaranmasına qədər pediatr kadrları Bakı Universitetinin tibb fakültəsinin məzunlarının ixtisas kursu keçməsi yolu ilə hazırlanırdı. Bu kurslar 1925-ci ildə yaradılmış Elmi- Tədqiqat Pediatriya İnstitutunda keçirilirdi. Azərbaycanda o dövrdə uşaq səhiyyəsi sahəsində çalışan həkimlərin az olması, xəstəliklərin geniş yayılması və uşaq ölümü hallarının həddən artıq yüksək olması həkim-pediatr kadrlarının hazırlanması məsələsinin vacibliyini meydana çıxarmışdı. Bu zərurətdən 1936-cı ildə Azərbaycan Xalq Səhiyyə Komissarlığının qərarı ilə ləğv edilmiş sanitariya-gigiyena fakültəsinin bazası əsasında pediatriya fakültəsi yaradılmışdır. Əslində indiki pediatriya fakültəsi 1932-ci ilin fevral ayında təşkil edilmiş «Ana və uşaq mühafizəsi» fakültəsinin varisi hesab edilir. Fakültədə 13 kafedra və 1 kurs fəaliyyət göstərir.

Fakültənin ilk dekanı göz xəstəlikləri kafedrasının müdiri professor A.Trubin olmuşdur.



Hazırda həmin fakültəyə dosent Nəriman Nağıyev rəhbərlik edir. Fakültənin fəaliyyəti illərində minlərlə yüksək ixtisaslı mütəxəssislər hazırlanmış, onun məzunları içərisindən görkəmli alimlər və səhiyyə təşkilatçıları yetişmişdir.



**Azərbaycanda stomatoloji fənlərin tədrisi ilk dəfə 1925-ci ildə yaradılmış Diş Həkimliyi İnstitutunda aparılmışdır. İnstitut ləğv edildikdən sonra 1930-cu ildə yaradılmış Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-proifilaktika fakültəsinə verdiyi ixtisaslara stomatologiya ixtisası da daxil edilmişdir. Stomatologiya fakültəsi sərbəst fakültə kimi 1954-cü ildə yaradılmışdır.**

## STOMATOLOGİYA FAKÜLTƏSİ

Həmin il fakültə dekanı olan professor Rüstəm Əliyev ixtisasca farmakoloq idi. O, eyni zamanda əczaçılıq fakültəsinin də dekanı idi. 1959-cu ildən isə fakültəyə yenə də ixtisasca farmakoloq olan professor Həmid Abdullayev rəhbərlik etməyə başlamışdır. Hazırda fakültə dekanı vəzifəsini professor Zöhrab Qarayev yerinə yetirir.

Fakültədə gələcək həkim - stomatoloqlar təhsil alır. 2002-ci ildə ulu öndər Heydər Əliyevin qayğısı sayəsində ATU-nun stomatoloji klinikası təşkil edilmişdir. Bu yaxınlarda klinikanın nəzdində yenicə tikilən tədris mərkəzi tələbələrin ixtiyarına verilmişdir. Fakültədə 9 kafedra və 1 kurs fəaliyyət göstərir.

## Hərbi Tibb Fakültəsi

Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi Respublika Prezidenti Ali Baş Komandan Heydər Əlirza oğlu Əliyevin 25 may 425 saylı 2000-ci il tarixli Fərmanına uyğun olaraq hərbi tibb kadrlarının hazırlanması məqsədi ilə təsis edilmişdir.

Hərbi tibb fakültəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Fəxrəddin Ağayevdir.

Fəaliyyət göstərdiyi 14 il ərzində Hərbi Tibb Fakültəsində hərbi təbabətin müxtəlif sahələri üzrə onlarla mütəxəssis yetişdirilmişdir.

Hərbi Tibb fakültəsinin zabit-müəllim heyəti Qarabağ müharibəsində böyük təcrübə toplamış, döyüş əməliyyatlarının qızğın vaxtında müalicə-təxliyyə, sanitariya-epidemioloji, tibbi təchizat və digər tədbirləri uğurla həyata keçirmişlər.

Hərbi Tibb Fakültəsinin tədris və maddi-texniki bazasına Silahlı Qüvvələrin hərbi tibb müəssisələri və Azərbaycan Tibb Universitetinin hərbi həkimlər və feldşerlərin



ümumi ixtisas hazırlığı üçün zəruri olan klinikaları (poliklinikaları), tədris laboratoriyaları və tədris planının tam həcmdə keçirilməsini, elmi-tədqiqat işlərinin aparılmasını təmin edən digər obyektlər daxildir.

Hərbi həkimlərin hazırlanmasında beynəlxalq təcrübəyə əsaslanan fakültə Azərbaycan Silahlı Qüvvələrinin bütün güc strukturları üçün yüksək səviyyəli hərbi tibb kadrları hazırlayır və fəaliyyətini Avropanın, Türkiyənin, digər inkişaf etmiş ölkələrin hərbi tibb müəssiləri ilə sıx əməkdaşlıq çərçivəsində qurur.

## TİBBİ-PROFİLAKTİKA VƏ TİBBİ-BİOLOGİYA FAKÜLTƏSİ

Azərbaycan Dövlət Tibb İnstitutu 1930-cu ildə təşkil edilərkən, onun fakültələrindən biri sanitariya-profilaktika fakültəsi olmuşdur. 1932-ci ildə institutda tropik təbabət fakültəsi təşkil edilmiş və 1933-cü ildə həmin fakültə sanitariya-profilaktika fakültəsi ilə birləşdirilmişdir. Birləşmiş fakültə sanitariya-gigiyena fakültəsi adlandırılmışdır. 1936-cı ildə bu fakültə dövrün tələbi nəzərə alınmadan, yuxarı təşkilatların sərəncamı ilə bağlanmışdır. Lakin bu qərarın məqsədəuyğun olmadığı tezliklə özünü göstərmiş və 1938-ci ildən etibarən fakültənin fəaliyyəti bərpa edilmişdir. Fakültəyə 1991-ci ildən etibarən «tibbi-profilaktika fakültəsi» adı verilmişdir. 1996-cı ildə bu fakültə «tibbi-biologiya» fakültəsi ilə birləşdirilmiş və bundan sonra ona «tibbi-profilaktika və tibbi-biologiya» fakültəsi adı verilmişdir. Sanitariya-profilaktika fakültəsinin ilk dekanlarından biri professor C.Hüseynov olmuşdur. 1985-1992-ci illərdə dosent fakültəyə rəhbərlik edən Aydın Məmmədov 1995-ci ildən yenidən fakültənin dekanı vəzifəsinə seçilmişdir və həmin ildən indiyə kimi bu vəzifəni yerinə yetirir. Tibbi-biologiya fakültəsinə yarandığı vaxtdan (1991-ci il)



sonra professor N.Quliyev (1991-1994) və dosent M.Əminova (1994-1995) rəhbərlik etmişlər. Birləşmədən sonrakı illər ərzində (1996-cı ildən etibarən) tibbi-profilaktika və tibbi-biologiya fakültəsinə dosent A.Məmmədov rəhbərlik edir. Hazırda tibbi-profilaktika və tibbi-biologiya fakültəsində 383 tələbə təhsil alır. Bunlardan 327 nəfəri tibbi-profilaktika, 56 nəfəri isə tibbi-biologiya bölməsinin tələbələridir. Fakültədə 9 kafedra fəaliyyət göstərir. Ali təhsil sahəsində Respublikamızın «Boloniya» prosesinə qoşulması ilə əlaqədar olaraq, 2006-cı ildən tibbi-biologiya ixtisası, 2008-ci ildən isə tibbi-profilaktika ixtisası üzrə tədris Avropa Kredit Sistemi əsasında təşkil edilmişdir.

## Əczaçılıq fakültəsi



Azərbaycanda ali əczaçılıq təhsilinin tarixi 1938-ci ildən başlanır. Həmin ildə Bakıda Azərbaycan Dövlət Əczaçılıq İnstitutu təşkil edilmişdir. İnstitutun rektoru vəzifəsini bacarıqlı təşkilatçı və siyasi dövlət xadimi prof. Əziz Məmmədkərim oğlu Əliyev, prorektoru vəzifəsini prof. Əbdüləhəd Səftər oğlu Həsənov, dekan vəzifəsini isə əczaçılıq magistri İ.K.Qolberq yerinə yetirmişdir. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi başladıqdan sonra institut əməkdaşlarının bir hissəsi ordu sıralarına cəlb edildiyinə görə tədris prosesində ciddi çətinliklər yaranmışdı. Bunu əsas tutaraq 1942-ci lidə Əczaçılıq İnstitutu ləğv edilmiş, onun bazası və tələbələri Azərbaycan Dövlət Tibb İnstitutunda təşkil edilən əczaçılıq fakültəsinə verilmişdir. Son illərdə ölkəmizdə ali təhsil sahəsində aparılan islahatlar əczaçılıq fakültəsinin fəaliyyətində də öz əksini tapmışdır. Bu islahatlarla əlaqədar, fakültədə çoxpilləli təhsil sisteminə keçilmişdir. Hal-hazırda fakültədə tələbələr müvafiq olaraq Azərbaycan, rus və ingilis dillərində bakalavr və magistr pilləsində təhsil alırlar. Əczaçılıq fakültəsinin dekanı vəzifəsini professor Tahir Süleymanov icra edir. Fakültənin nəzdində 9 kafedra fəaliyyət göstərir.

# Dövlət imtahanları başa çatdi, nəticələr qənaətbəxşdir

**Dövlət-buraxılış imtahanları artıq sona çatıb. İmtahanların gedişatında obyektivlik və şəffaflıq gözlənilmiş, hər bir tələbənin hazırlaşıb sərbəst cavab verməsi üçün əlverişli şərait yaradılmışdır.**



İmtahanların nəticələri ilə daha yaxından tanış olmaq, builki məzunlar haqqında statistik məlumatlar almaq üçün I müalicə işi fakültəsinin dekanı, professor Abuzər Qazıyev, II müalicə işi fakültəsinin dekanı, dosent Taryel İsmayılov, pediatriya fakültəsinin dekanı, dosent Nəriman Nağıyev, tibbi-profilaktika və tibbi-biologiya fakültəsinin dekanı, dosent Aydın Məmmədov, stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev, hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Fəxrəddin Ağayev və əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanovla əlaqə saxladıq.

Məlum oldu ki, I müalicə işi fakültəsini bu il 254 nəfər bitirir. Bunlardan 216-sı Azərbaycan, 22-si rus, 16-sı isə ingilis dili bölmələrinin məzunlarıdır. Bu məzunların sırasında 8-i Prezident təqaüdçüsü olmaqla 24 tələbə fərqlənmə diplomuna layiq görülmüşdür.

II müalicə işi fakültəsini bu il 267 nəfər bitirir. Bunlardan 231-i Azərbaycan, 36-sı rus bölməsinin məzunudur. Bu məzunların sırasında 3-ü Prezident təqaüdçüsü olmaqla 28 tələbə fərqlənmə diplomuna layiq görülmüşdür.

Hər iki fakültənin tələbələri cərrahi xəstəliklər, daxili xəstəliklər, mamalıq və ginekologiya fənlərindən dövlət imtahanları vermişlər.

Pediatriya fakültəsini bu il 186 nəfər bitirir. Bunlardan 161-i Azərbaycan, 25-i isə rus bölməsinin məzunudur. Bu məzunların sırasında 14 nəfər fərqlənmə diplomuna layiq görülmüşdür.

Tələbələr uşaq xəstəlikləri və uşaq cərrahlığı fənlərindən dövlət imtahanları vermişlər.

Stomatologiya fakültəsini 200 nəfər tələbə başa vurur. Onlardan 98 nəfəri Azərbaycan vətəndaşı, 102 nəfəri isə əcnəbidir. Builki məzunlar dörd fəndən semestr imtahanı, üç fəndən isə-terapevtik stomatologiya, ortopedik stomatologiya və ağız, üz-çənə cərraihyəsi fənlərindən yekun dövlət imtahanı veriblər. İmtahanlar iki mərhələdə - bacarıqlar və nəzəri biliklər hissəsindən ibarət olmuşdur.

Tibbi profilaktika və tibbi biologiya fakültəsini tibbi profilaktika ixtisası üzrə bitirməli olan 44 tələbə, eyni zamanda keçən il dövlət imtahanlarına buraxılmış 5 nəfər son kurs tələbəsi 2013-2014-cü tədris ilində akademik borclarını təkrar dinləmələr vasitəsilə ləğv etdikləri və müvafiq tədris kreditlərini topladıqları üçün dövlət imtahanlarına buraxılmışlar. Beləliklə, dövlət imtahanlarına buraxılan 49 nəfər tələbə imtahanları uğurla verərək həkim adına layiq görülmüşlər.

Tibbi biologiya ixtisası üzrə təhsil alan məzunlar artıq 3-cü ildir ki, kredit sisteminin tələblərinə uyğun olaraq dövlət imtahanlarını iki mərhələdə verirlər. İxtisas üzrə son kursda təhsil alan 30 tələbədən 3 nəfəri təhsil proqramını yerinə yetirmədiyi üçün dövlət imtahanlarına buraxılmamışdır. Eyni zamanda keçən il dövlət imtahanlarına buraxılmış 3 nəfər son kurs tələbəsi 2013-2014-cü tədris ilində akademik borclarını təkrar dinləmələr vasitəsilə ləğv etdikləri və müvafiq tədris kreditlərini topladıqları üçün dövlət imtahanlarına buraxılmışlar. Dövlət imtahanlarından uğurla keçən 27 nəfər tələbəyə həkim-bioloq adı verilmişdir.

Əczaçılıq fakültəsini 64 tələbə bitirir. Onların 16 nəfəri əcnəbi tələbədir. Məzunlar toksikoloji kimya, əczaçılıq kimyası, farmakoqnoziya, əczaçılığın təşkili və əczaçılıq texnologiyası fənlərindən diplom müdafiəsi etmişlər.

Qeyd edək ki, şəffaflıq və tələbkarlıq şəraitində keçirilmiş imtahanlarda heç bir münaqişə halı yaranmamışdır. Xırda narazılıqlar operativ olaraq Dövlət Attestasiya Komissiyası tərəfindən yerindəcə də həll edilmişdir.

ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov dövlət-buraxılış imtahanlarının gedişini daim nəzarətdə saxlamışdır.

* * *

Yay-semestr imtahanlarına gəldikdə isə "Virtual Test Mərkəzi"nin məlumatına əsasən, imtahanlarda 5000-ə yaxın tələbə 130 adda fəndən imtahan verəcək. Əvvəlki illərə nisbətən imtahan verən tələbələrin sayı çoxalıb, testə salınan sualların sayı artıb və bir qədər də mürəkkəbləşdirilib. Həmçinin müəyyən fənlər üzrə test bankı yaradılıb. Bir sözlə, bu sistemin özündə yenilik olmasa da, müsbətə doğru xeyli dəyişikliklər var.



İmtahanlar başlayan gündən hörmətli rektorumuz, millət vəkili, akademik Əhliman Əmiraslanov dəfələrlə "Virtual Test Mərkəzi"nə gələrək tələbələrlə görüşüb, onların imtahanla bağlı fikirlərini dinləyib, problemləri ilə yaxından maraqlanıb. Rektorla tələbələrin bütün görüşlərində klassik imtahanla yeni virtual test imtahanlarının fərqli cəhətlərindən söhbət açılıb. Tələbələrin böyük əksəriyyəti bu sistemin daha ədalətli və obyektiv olduğunu dönə-dönə vurğulayıblar.

Mərkəzdən bildirilib ki, yay-semestr imtahanları rektorun müvafiq əmrinə əsasən iyul ayının 3-də başa çatacaq.

**Qabil ABDULLAYEV**

Fotolar Cənnətalı CİNGİZİNDİR

# ATU-da Türkiyə tibb mərkəzləri ilə telekonfrans keçirilib

**Azərbaycan Tibb Universitetində Türkiyəli alimlərin iştirakı ilə canlı telekonfrans keçirilib. Bağlantıya ATU professorları ilə yanaşı, Türkiyənin Bilim Universiteti, Şişli "FLORENCE NİGHTİNGALE" Araşdırma və Uyğulama xəstəxanasının mütəxəssisləri qatılıblar.**






ATU-nun Tədris Terapevtik Klinikasında baş tutan canlı telekonfrans zamanı Metabolik xəstəliklər zamanı qaraciyər transplantasiyası mövzusunda çıxışlar olub. Bu mövzuda professor Dr. Yaman Tokat, Yıldıray Yüzey, Ahmet Aydın və Tülay Erkan danışıblar. Həmçinin, depo xəstəlikləri, aminturşu metobolizm pozğunluqları, üzvi asimediyalar mövzusunda məruzələr səslənib.

Canlı bağlantının sonunda xəstəlik faktlarına dair müzakirələr aparılıb. Konfrans zamanı Azərbaycan Tibb Universitetində aparılan müayinə və müalicələr, əməliyyatlar barədə videofaktlar açıqlanıb. Öz növbəsində, türkiyəli mütəxəssislər də müzakirə olunan xəstəliklərə dair həyata keçirilən uğurlu müalicələr haqqında məlumatları, foto və video çarxları nümayiş etdiriblər.

**ATU-nun mətbuat xidməti**

# Universitetimizin tələbəsi şahmat üzrə Azərbaycan Çempionatının qalibi oldu



**İyunun 7-də Bakıda şahmat oyunu üzrə kişilər arasında Azərbaycan çempionatı başa çatdı.**

Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin 802-ci qrup tələbəsi, Beynəlxalq qrossmeyster Ülvü Bacarani bu yarışlarda uğurla çıxış etdi və Azərbaycanın mütləq çempionu fəxri adını qazandı.

Sonuncu turda Beynəlxalq qrossmeyster Zaur Məmmədova qalib gəlməklə mümkün olan 7 xaldan 5 xal yığdı və gızıl medala sahib oldu.

Yarışlarda iştirak edən 8 idmançının 5 nəfəri Beynəlxal qrossmeyster və 3 nəfəri Beynəlxalq idman ustası idi.

Ülvü Bacarani bu qələbəsi ilə öz reytinq cədvəlinə 14,8 xal əlavə elədi.

Bu ilin sentyabr ayında Bilbao şəhərində (İspaniya) şahmat üzrə Avropa Kuboku keçiriləcək. Həmin yarışlarda Azərbaycanın "Odlar Yurdu" yığma komandasının tərkibində yer alan tələbəmiz Ülvü Bacarani də öz gücünü sınayacaq.

Gələcək yarışlarda Ülvü Bacaraniyə müvəffəqiyyətlər arzulayırıq!

**S.İSAYEVA,**
*İdman klubunun sədri*

# Azərbaycan Tibb Universitetinə Dövlət qayğısı

**Dövlətimizin apardığı ardıcıl islahatlar bütün sahələrdə olduğu kimi elm və təhsildə də özünü göstərir. Son illər ölkə rəhbərinin diqqət və qayğısı nəticəsində Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmiş, respublikamızda ali təhsilli tibbi kadrların yüksək səviyyədə hazırlanması məqsədilə bir sıra tədris klinikaları tikilib istifadəyə verilmişdir.**





Vaxtilə Azərbaycan Tibb Universitetinin klinik fənləri tədris edən bir çox kafedralarının paytaxtımızın müxtəlif rayonlarının ərazisində yerləşməsi səbəbindən tədris prosesinin təşkilinə və nəzəri fənlərin praktik təcrübə ilə daha sıx əlaqələndirilməsinə mənfi təsir göstərirdi.

1998-ci il sentyabrın 28-də ATU- nun 11 mərtəbəli tədris binasının və 2000-ci il iyun ayının 19–da ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə Azərbaycan Tibb Universitetinin 70 illik təntənəli yubiley tədbirində isə böyük akt zalının açılışı olmuşdur. Hər iki mərasimdə ulu öndər Heydər Əliyevin proqram xarakterli geniş tarixi nitqləri toplantı içtirakçıları tərəfindən gurultulu alqışlarla qarşılanmışdır.

2002- ci ildə ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Tibb Universitetinin ilk klinikası olan Stomatoloji, 2006- cı ildə isə ölkə prezidenti cənab İlham Əliyevin yaxından köməkliyi ilə Onkoloji Klinikanın yaradılması haqqında hökumət strukturunda qərar qəbul edildi.



2007-ci ilin avqust ayında Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov çoxprofilli terapevtik klinikaya olan ehtiyacın zəruriliyi haqqında ölkə rəhbəri cənab İlham Əliyevə müraciət etmiş və möhtərəm prezident bu müraciətə dərhal cavab verərək elə həmin ilin 11 sentyabrında ATU-nun Tədris Terapevtik Klinikasının yaradılması haqqında sərəncam imzalamışdır.

Az sonra 2007-ci il sentyabrın 18-də Azərbaycan Tibb Universitetinin çoxprofilli Tədris Terapevtik Klinikasının təməli qoyulmuş və 2010-cu il oktyabrın 1-də 14 mərtəbəli bu möhtəşəm klinikanın açılış mərasimi olmuşdur.

2008-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Tibb Universitetinin daha bir yeni Tədris Cərrahiyyə Klinikasının yaradılması haqqında sərəncam imzalayır. Çox keçmir ki, 2013-cu il oktyabrın 12-də ümumi ərazisi 45 min kvadratmetr olan bu cərrahiyönümlü klinika bütün müasir avadanlıqlarla təchiz edilərək ATU-nun müəllim və tələbələrinin ixtiyarına verilir .

Hər iki unikal klinikanın açılış mərasimlərində ölkə başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva iştirak etmişlər.

Beləliklə, yuxarıda qeyd edildiyi kimi müxtəlif ərazilərdə yerləşən kafedraların vahid bir məkanda mərkəzləşdirilməsi Azərbaycan Tibb Universitetinin bu istiqamətdə tədris prosesinin təşkilinin yaxşılaşdırılması və həmçinin elmi-tədqiqat işlərinin aparılması üçün böyük imkanlar yaratmışdır.





**M.ƏLƏKBƏRLI**

# ATU rəqəmlərin dili ilə



ADR parlementi 1919-cu ilin sentyabr ayının 1-də Bakı Dövlət Universitetinin təsis edilməsi haqda qərar qəbul etmişdir. Universitetin ən böyük fakültələrindən biri tibb fakültəsi olmuşdur.

* * *

1920-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin heyətində 12 professor, 2 dosent və 27 assistent çalışmışdır.

* * *

Universitetdə tədris işlərinə ilk azərbaycanlı kadrlar M.Topçubaşov və M.Mirqasımov dəvət edilmişlər.

* * *

1922-ci ildə universitetin ilk buraxılışında 30 nəfər həkim diplomu almışdır. Onlardan yalnız 3 nəfəri azərbaycanlı olmuşdur.

* * *

Azərbaycan Tibb İnstitutunda uzun müddət kafedra müdiri işləyən Adilə xanım Şaxtaxtinskaya (1894-1951) elmlər doktoru adını alan ilk azərbaycanlı mama-ginekoloq qadındır.

* * *

Azərbaycanın ilk qadın elmlər doktoru da tibb mütəxəssisi olmuşdur. Bu, 1929-ci ildə oftalmologiya sahəsində elmlər doktoru adını almış Sona xanım Əlixanovadır.

* * *

BDU-nun tibb fakültəsində 10 il ərzində 1407 həkim hazırlanmışdır.

* * *

Azərbaycan Dövlət Tibb İnstitutu Azərbaycan SSR Xalq Komissarları Sovetinin 19 iyun 1930-cu il tarixli qərarı ilə yaradılmışdır.

* * *

Fəaliyyətdə olduğu 10 il ərzində ADTİ-yə (1930-1940) 4733 tələbə qəbul olunmuşdur.

* * *

ATDİ-yə tələbə qəbulu artırılaraq 1970-1980-ci illərdə 1300 nəfərə çatmışdır.

* * *

1980-ci ilin 22 avqusunda yaradılmasının 50 illiyi münasibətilə ADTİ SSRİ Ali Sovetinin fərmanı ilə «Qırmızı Əmək Bayrağı Ordeni» ilə təltif edilmişdir.

* * *

Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1991-ci ildə ADTİ Azərbaycan Dövlət Tibb Universiteti statusunu almışdır.

* * *

Öz fəaliyyəti dövründə Tibb Universitetində 60 minə yaxın həkim və provizor hazırlanmışdır. ATU ali təhsil sahəsində Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə Şərqi Asiya Ölkələri arasında əməkdaşlıq Tempus Tasis proqramına görə Transavropa əməkdaşlığının üzvüdür.

* * *

Universitet 1996-cı ildə dünya ali təhsil müəssisələrinin Beynəlxalq Reyestrinə daxil edilmişdir.

* * *

2000- ci ildə ulu öndər Heydər Əliyevin dəstəyi ilə ATU-nun həyatında strateji əhəmiyyət kəsb edən hərbi tibb fakültəsi yaradılmışdır.

* * *

2002-ci ildə ATU Avropa Universitetlər Assosiasiyasına tam hüquqlu üzv qəbul edilmişdir.

* * *

Prezident İlham Əliyev 2010- cu il 28 aprel tarixində Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

## *Etibarsız sayılır*

Hərbi tibb fakültəsinin III kurs, 1132[b] qrup tələbəsi Fərzəliyev Fuad Asif oğlunun adına verilmiş qiymət kitabçası və tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 304[a] qrup tələbəsi Sabirzadə Samir Azər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 160